# Cəlil türbəsi

**Qarabag.com Qarabağın tarixi abidələri haqqında materialları dərc etməkdə davam edir.**

Cəlil türbəsi Füzuli rayonunun Qarğabazar kəndinin yaxınlığındakı qəbiristanlıqda yerləşir.

[ə.V.Salamzadə. XVI-XIX əsrlərin Azərbaycan memarlığı 1964-cü il., səh. 63]

[Qarabağ: tarix münaqişə kontekstində\\Məşədixanım Nemətova. Qarabağın epiqrafik abidələri. 2014-cü il., səh. 162]

Türbə 1792-1793-cü illərdə memar İbrahim Xəlil tərəfindən ucaldılmışdır. Abidə burada dəfn olunmuş Cəlil adlı şəxsin şərəfinə adlandırılmışdır. Bu, türbənin içərisindəki divarda, qara tuşla yazılmış fars dilində olan şeir yazısı ilə təsdiq edilir:
“*Adı Cəlil olan bu dəfn olunanın günahlarını mərhəmətinizlə bağışlayın. Əgər memarı* (türbənin) *axtaracaqsınızsa, o İbrahim Xəlildir. 1207 h.q.* (=1792\93)”.

[Qarabağ: tarix münaqişələr kontekstində\\ Məşədi xanım Nemətova. Qarabağın epiqrafik abidələri. 2014-cü il., səh. 162]



Sovet və Azərbaycan mənbələrində Cəlil türbəsi haqda o qədər də çox məlumat yoxdur. Lakin 1963-cü ilin “Azərbaycanın memarlıq tarixi” və 1964-cü ilin “XVI-XIX əsrlər Azərbaycan memarlığı” kitablarında Qarğabazar türbəsinin adı çəkilir. Məhz bu məqbərənin Cəlil türbəsi olduğu güman edilir.

1963-cü ilin “Azərbaycanın memarlıq tarixi” kitabında türbənin kərpicdən tikilmiş səkkizguşəli tikili olduğu qeyd edilir. Divar materialı kimi kərpicdən istifadə bu abidəni Arazboyu bölgəsinin XVI-XVII əsrlərə aid səkkizguşəli türbələrindən fərqləndirir. 1964-cü ilin “XVI-XIX əsrlər Azərbaycan memarlığı” *kitabında aşağıdakı kimi göstərilir: “Qarğabazar türbəsinin kompozisiya xüsusiyyəti – onun giriş qapısının iri ölçüləridir. Bu xüsusiyyət yalnız yerli türbələr deyil, həm də XVI-XIX əsrlərə aid Azərbaycanın şimalındakı türbələr üçün də qeyri-adidir.*

[M. Useynov. L.Bretanitskiy, A.Salamzadə. Azərbaycanın memarlıq tarixi. 1963-cü il., səh. 314]

[Ə.V. Salamzadə. XVI-XIX əsrlər Azərbaycanın memarlığı 1964-cü il., səh. 63]

Füzulinin 1993-cü ildə erməni silahlı birləşmələri tərəfindən işğal edilməsi ilə türbə dağıdılmışdır.